

# Tahir KAZIMOV

Amansız ölüm qələm yoldaşımız Tahir Kazımovu aramızdan apardı.

Tahir Şirin oğlu Kazımov 1942-ci il aprelin 27-də Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olub. O, 1968-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirib. 1975-1979-cu illərdə SSRİ Daxili İşlər Nazirliyinin Akademiyasında təhsil alıb. Əmək fəaliyyətinə 1967-ci ildə "Ulduz" jurnalında başlayıb. Sonrakı illərdə respublika Daxili İşlər Nazirliyində müxtəlif vəzifələrdə işləyib. 1998-2004-cü illərdə Azərbaycan Milli Aerokosmik Agentliyində direktor müavini vəzifəsində, 2004-cü ildən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında şöbə müdiri vəzifəsində işləmişdir. Azərbaycan Respublikası Silahlı Qüvvələri və Qarabağ müharibəsi veteranı idi.

1965-ci ildən bədii yaradıcılıqla məşğul olub. "Əmək rəşadəti adlı" ilk kitabı 1970-ci ildə çapdan çıxmışdır. "Səsin sehri" əsəri səhnələşdirilmiş və uzun müddət Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında müvəffəqiyyətlə oynanılmışdır. "Taleyin qisməti beləymiş yəqin" adlı dörd kitabdan ibarət romanının birinci kitabı ssenariləşdirilmiş və əsasında on seriyalı televiziya filmi çəkilmişdir. "Qisas" romanı türk və özbək dillərinə tərcümə edilib nəşr olunmuşdur. Bu roman əsasında ölkəmizdə otuz iki seriyalı telefilm çəkilmişdir. "Müsibət" sənədli romanı 1988-1994-cü illərdə Azəbaycanda cərəyan edən ictimai-siyasi hadisələrə həsr edilmişdir. "Talelərini özləri yazanlar" romanı tarixi faktlar, sənədlər əsasında yazılmış, erməni xəyanətkarlığı, əsasən 1915, 1918-1920, 1988-1994-cü illər soyqırımları bütün təfərrüatı ilə bu əsərdə əksini tapmışdır. Yaradıcılığında şeirə də yer vermişdir. Sözlərinə musiqi bəstələnmişdir. Ədəbi-ictimai fəaliyyəti "Qızıl qələm", "Şərəf", "Araz", "Ömər Faiq Nemanzadə" və "Qrand" fəxri diplomları ilə dəyərləndirilmişdir. Türk ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının "Türk ədəbiyyatına xidmət" mükafatı və "Altın yıldız" medalına layiq görülmüşdür. Təbiət Elmləri Avropa Akademiyasının Elmi Şurasının rəyi ilə ədəbiyyatda xüsusi xidmətlərinə görə "Şiller" medal-diplomu "Taclı ulduz" orden-diplomu (Almaniya), Rusiya Yazıçılar İttifaqının A.P.Çexov adına xatirə medalı ilə təltif edilmişdir.

İstedadlı qələm yoldaşımız, səmimi, təvazökar insan Tahir Kazımovun işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 12 mart.- S. 32.**